# “CASPIAN LLOYD” MMC

## ANTİKORRUPSİYA SİYASƏTİ

1. Bu sənədin məqsədi firmanın rüşvətxorluq və korrupsiya ilə bağlı siyasətini müəyyən etməkdir.Antikorrupsiya siyasəti ciddi şəkildə bütün işçilərə, direktorlara, agentlərə, məsləhətçilərə, podratçılara və şirkət ilə əlaqəli hər hansı digər şəxslərə və ya qurumlara, bütün bölgələr, sahələr və funksiyalar daxilində tətbiq edilir.

2. Rüşvətxorluq və ya korrupsiya əməlləri fərdlərə öz vəzifələrini yerinə yetirərkən təsir etmək və onları iş şəraitində qanunsuz hesab ediləcək şəkildə hərəkət etməyə sövq etmək üçün nəzərdə tutulub.Rüşvət , məsul şəxsi hansısa hərəkətə sövq etmək üçün verilən və ya təklif olunan üstünlük və maddi mənfəət kimi təsvir oluna bilər. Korrupsiya şəxsi mənfəət üçün etibar edilmiş səlahiyyətdən sui-istifadənin istənilən formasıdır və rüşvətxorluğu əhatə edə bilər, lakin bununla məhdudlaşmır. Rüşvət həmişə nağd pulun verilməsi məsələsi deyil. Hədiyyələr, qonaqpərvərlik və əyləncələr qərara təsir etmək məqsədi daşıyırsa, rüşvət ola bilər.

3. CL vətəndaşlıqdan, yaşayış yerindən və ya ərazidən asılı olmayaraq, onun naminə çalışan bütün nümayəndələrdən, məmurlardan, icraçılardan və üçüncü tərəflərdən rüşvətxorluq çərçivəsində olan hər hansı bir davranışdan çəkinməyi tələb edir.

4. CL heç bir formada rüşvət və ya korrupsiyaya tolerantlıq göstərməyəcək. Firma nağd və ya hər hansı digər bir formada rüşvətin təklif edilməsini və qəbulunu qadağan edir.

5. CL dövlət satınalmaları üçün hər hansı rüşvət və ya korrupsiya hallarına yol verilməsini ,həmçinin hökumət nümayəndəsinə rüşvətlə təsir etməni qadağan edir.

6. Korrupsiyayla qarşı mübarizə hal-hazırda Azərbaycan Respublikasının qüvvədə olan qanunu və onun tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrlə tənzimlənir. CL əməkdaşları həmçinin daxili antikorrupsiya siyasəti qaydalarına cavabdehdirlər. Hər hansı bir rüşvət və ya qanunsuzluq halında hər bir CL əməkdaşı məsuliyyət daşıyacaq.